# PAYIZLIQ BUĞDANIN İNTRODUKSİYA OLUNMUŞ SORTLARININ ƏKİN MÜDDƏTİNƏ VƏ SUVARMAYA HƏSSASLIĞI

**Tofiq Məmmədli, Səma Həsənova, Məmmədzadə Nəbiyev***

*Agro Dairy MMC, mammadzade.nabiyev@agrodairy.az*

Agro Dairy MMC Azərbaycanın aparıcı və iri taxılçılıq şirkətlərindən biri olaraq 2015-ci ildən fəaliyyət göstərməyə başlamaqla ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması, milli toxum ehtiyatının elmi əsaslı inkişafını və xaricidən toxum asılılığını azaltmağı hədəfləmişdir. Əsas missiyası yeni ərazilərin əkin dövriyyəsinə cəlb edilməsi, növbəli əkin sistemi, intensiv aqrotexnologiyaların tətbiqi ilə idxalın yerli istehsalla əvəz edilməsi, su, iqim və torpaq ehtiyatlarının daha səmərəli istifadəsi, həmçinin həyata keçirilən iri miqyaslı təsərrüfat layihələrinin əhatə etdiyi regionların sosial və kənd təsərrüfatı infrastrukturunun yaxşılaşdırılması və inkişafıdır.

Məqsəd Samux rayonunun Qaraağaclı kəndi ərazisində 3 min hektar, Tovuz rayonunun Ceyrançöl massivində 7 min hektar, Padarçöl ərazisində 7128 hektarda yaradılmış bitkiçilik təsərrüfatlarının səmərəli və davamlı inkişafının təmin edilməsi; işğaldan azad edilmiş ərazilərdə irimiqyaslı intensiv bitkiçilik təsərrüfatının yaradılması və inkişafı; buğda, arpa, qarğıdalı, şəkər çuğunduru, soya, yonca və digər bitkilərin istehsalında yüksək məhsuldarlıq və yüksək keyfiyyətə nail olunması; torpaqların münbitliyinin artırılması, torpaq eroziyasının qarşısının alınması, pivot (süni yağışyağdırma aqreqatları) suvarma sistemi ilə su ehtiyatlarının dayanıqlı istifadəsi; güclü insan resursları bazasının inkişafı üçün gənc mütəxəssislərin cəlb olunması və potensialının artırılmasıdır.

Şirkət fəaliyyət göstərdiyi ərazilərdə yüksək, keyfiyyətli və sabit məhsul əldə etmək üçün müxtəlif texnoloji variantları dəyərləndirir. Təcrübi olaraq müəyyən edilmişdir ki, konkret şəraitlərdə payızlıq buğdanın məhsuldarlığına bir çox amillər, xüsusilə torpaq, iqlim, əkin müddətləri, səpin normaları və üsulları, gübrə və suvarma normaları, alaq otları, xəstəlik və zərərvericilərlə sirayətlənmə və s. amillər əsaslı təsir göstərir. Belə dəyərləndirmələrdən biri konkret və geniş sahələrdə aparılan əkin vaxtları və suvarma normalarının məhsuldarlığa təsirinin öyrənilməsi olmuşdur.

Ceyrançöl massivinin Tovuz və Padarçöl massivinin Hacıqabul ərazilərində müxtəlif vaxtlarda aparılan səpinlər introduksiya olunmuş sortların optimal əkin vaxtlarını və suvarmaya həssaslıqlarını müəyyən etməyə imkan vermişdir.

İntroduksiya olunmuş yeni sortlardan Balaton sortu oktyabr ayında aparılan səpinlərdə ən yüksək göstəriciyə malik olmuşdur. Belə ki, 11-17 oktyabr tarixlərində 206 hektar sahədə həyata keçirilən əkinlərdə məhsuldarlıq 6,34 ton/ha, 19-23 oktyabr tarixlərində 455 hektar sahədə aparılan səpinlərdə məhsuldarlıq 7,03 ton/ha, 15-29 noyabr tarixlərində isə 364 hektar sahədə məhsuldarlıq 3.97 ton/ha təşkil etmişdir. Sortun suvarmaya həssaslığı 19-23 oktyabr tarixlərində aparılan səpinlərdə özünü daha kəskin biruzə vermişdir.

Maurizio və Gaudio sortları əkin müddətinə çox həssas olmuş və öz potensiallarını daha çox oktyabr səpinində biruzə vermişdir. Maurizio sortunun Hacıqabul ərazisində 1213 hektar əkin sahəsinin araşdırılması göstərmişdir ki, Tovuz ərazisi ilə müqayisədə daha yüksək məhsuldarlıq noyabrın əvvəlində (3-5 noyabr) aparılan səpinlərdə müşahidə edilmişdir (331 hektarda orta hesabla 5.7 ton/ha). 492 hektar sahədə 22-29 oktyabr tarixlərində aparılan əkinlərdən orta məhsuldarlıq 5.4 ton/ha, 15-20 noyabrın tarixlərində 390 hektar sahədə aparılan səpinlərdə orta hesabla 5,0 ton/ha məhsuldarlıq əldə edilmişdir.

Əldə edilmiş nəticələr işğaldan azad edilmiş bölgələrdə, həmçinin digər oxşar ərazilərdə effektiv şəkildə istifadə ediləcəkdir.